**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**TAMİLLA BAYRAM QIZI ÇƏLƏBİYEVA**

# AZADLIĞIN MƏHDUDLAŞDIRILMASI CƏZASININ CİNAYƏTKARLIQLA MÜBARİZƏDƏ ROLU

**İxtisaslar: 5611.01–"Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ"; 5613.01 – «Məhkəmə hakimiyyəti; prokurorluq və vəkillik fəaliyyəti, hüquq mühafizə fəaliyyətinin təşkili»**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

# AVTOREFERATI

**Bakı – 2016**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Cinayət və kriminologiya" kafedrasında yerinə yetirilmiş, geniş müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq üzrə elmlər doktoru, professor Azərbaycan Respublikasının əməkdar hüquqşünası F.Y.SƏMƏNDƏROV** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru, professor H.Ş.QURBANOV** |
| | **hüquq üzrə elmlər doktoru, professor F.M.ABBASOVA** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası** |

Dissertasiya işinin müdafiəsi "_30_" __mart__ 2016-cı il tarixdə saat "_13:30_" Bakı Dövlət Universitetinin nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris binası, 002 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "__26__" _fevral_ 2016-cı il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya Şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Azadlığın məhdudlaşdırılması cəzasının cəzalar sistemində tutduğu yer, onun cinayətkarlıqla mübarizədə oynadığı müsbət rolu və cinayət hüququnun mühüm institutlarından biri kimi daha dərindən təhlilə ehtiyacı olan problemlərdən biri olması, habelə bu cəza tədbirinin qüvvədə olan qanunvericilikdən çıxarılmasının uğurlu addım olmamasının obyektiv izahı ilə müəyyən edilir.

Təyin edilən hər bir cəza, ilk növbədə, fərdi xarakter daşıyır. Cəzanın fərdiləşdirilməsi, əgər bir tərəfdən onun səmərəli olması üçün təminat yaradırsa, digər tərəfdən cəza təyinetmənin bilavasitə özünün ümumi prinsiplərindən biri kimi çıxış edir. İstənilən cəza fərdiləşdirilərkən konkret tərkiblərdə cinayətlərə dövlət tərəfindən verilən sosial-siyasi qiymət rəhbər tutulur. Bu isə, öz növbəsində, cəzanın düzgün fərdiləşdirilməsini cinayətlərin düzgün tövsif edilməsindən asılı vəziyyətə salır. Cinayətlərin düzgün tövsifi qanunçuluq prinsipinin tələblərinə riayət etməklə, törədilmiş kriminal əməlin xarakterini, sosial təhlükəlilik dərəcəsini və eləcə də cəzanın həddini dürüst müəyyən etməyə əlverişli imkan yaradır.

Məhkəmə (hakim) cəza təyin edərkən qanunla müəyyən edilən digər müddəalarla yanaşı, həm də hüquq düşüncəsini rəhbər tutur. Hüquq düşüncəsi hər bir demokratik cəmiyyətdə ədalətlilik və humanizm haqqında hüquqi görüşlərin məcmusundan ibarətdir. Belə görüşlər isə, adətən, əxlaqi-siyasi dünyagörüşünün təsiri altında formalaşır və tədricən inkişaf edir.

Cinayət cəzasının tətbiqi prosesində ədalət və humanizm prinsiplərinə əməl edilməsi, qanuni və əsaslı hökmlər çıxarılması, təyin edilən cəzaların törədilmiş ictimai təhlükəli əməllərin ağırlığına və xarakterinə uyğunluğu, habelə cəzanın məqsədlərinə nail olunması cinayət hüquq siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Nəzərə almaq lazımdır ki, məhkumların islahına nail olunması və onların sağlam həyata qaytarılması törədilmiş əmələ görə təyin edilən cəzaların sərtliyi və ya ağırlığı ilə deyil, onların baş vermiş cinayətlərin ictimai təhlükəlilik dərəcəsinə uyğunluğu ilə ölçülür. Təyin edilən hər bir cəzanın törədilmiş kriminal əməlin ictimai təhlükəli xarakterinə tam uyğun olması vacib şərtdir. Cəzanın məqsədlərinə yalnız bu yolla nail oluna bilər.

Azadlığın məhdudlaşdırılması cəza növü Azərbaycan Respublikası cinayət hüququnun cəzalar sistemində yeni hadisə idi. Bu yenilik, ilk növbədə, ondan ibarətdir ki, azadlığın məhdudlaşdırılması azadlıqdan məhrum etmə ilə bağlı deyildir. Digər tərəfdən, həmin cəza penitensiar



müəssisədə deyil, xüsusi müəssisədə çəkilirdi. Məhkumların təyin edilmiş cəzanı nəzarət altında çəkmələri onların islahına müsbət təsir göstərirdi.

Azadlığın məhdudlaşdırılması cəza növünü səciyyələndirən xüsusiyyətlərdən biri ondan ibarət idi ki, bu cəza bütün təqsirkarlara deyil, yalnız cinayət qanunu ilə ciddi müəyyən edilmiş xüsusi kateqoriya və ancaq məhkəmənin hökmündə nəzərdə tutulan şəxslərə təyin edilirdi. Səciyyəvi cəhət idi ki, həmin cəza əsas cəzalardan biri kimi ancaq Cinayət Məcəlləsinin Xüsusi hissəsinin maddəsində nəzərdə tutulduğu hallarda tətbiq edilirdi.

Azərbaycan Respublikasının yeni cinayət qanunvericiliyinin cəzaların tətbiqi və icrası ilə bağlı elə nəzəri və praktiki problemləri mövcuddur ki, onların dərindən və ətraflı tədqiq edilməməsi, istər elmi-nəzəri tədqiqatlarda, istərsə də istintaq-məhkəmə orqanlarının hüquq tətbiqetmə fəaliyyətində meydana çıxan suallara cavab verilməməsi cinayət qanunlarının həyata keçirilməsində müəyyən çətinliklərə, eləcə də ədalət mühakiməsinin aparılması gedişində anlaşılmazlıqlara, bəzən isə qarşısıalınmaz səhvlərə yol verilməsinə səbəb olur.

Azərbaycan Respublikasının cinayət hüququnda azadlığın məhdudlaşdırılması cəzası ilə bağlı hələ mübahisəli məqamların meydana çıxmaması, ilk növbədə, cəzanın bu növünün, ümumiyyətlə, tədqiq edilməməsi ilə əlaqədar olmuşdur. Qeyd etmək lazımdır ki, Müstəqil Dövlətlər Birliyi (MDB) məkanına daxil olan ölkələrdə də azadlığın məhdudlaşdırılması cəzasına dair tədqiqat əsərlərinə demək olar ki, rast gəlinmir.

Yuxarıda göstərilənlər, habelə azadlığın məhdudlaşdırılması cəzasının yeni əsas cəza növü kimi cinayət qanunvericiliyinə daxil edilməsi "Azadlığın məhdudlaşdırılması cəzasının cinayətkarlıqla mübarizədə rolu" mövzusunda dissertasiya tədqiqatının aktuallığını müəyyən edir. Belə ki, həmin cəza növünün ətraflı və dərindən araşdırılmasına böyük ehtiyac duyulur. Məhz bütün bu göstərilənlərə görə həmin mövzuya müraciət edilmişdir.

**Mövzunun elmi işlənmə dərəcəsi.** Tədqiqat mövzusu ilə bağlı elmi tədqiqat əsərlərinin sayı son dərəcə azdır və son on ildə belə bir mövzuya demək olar ki, xüsusi tədqiqat əsəri həsr edilməmişdir. Artıq qeyd edildiyi kimi, bu, həmin cəzanın qanunvericiliyə son dövrdə daxil edilməsi ilə bağlıdır.

Azadlığın məhdudlaşdırılması ilə bağlı məsələlərin qismən təhlili öz ifadəsini F.Y.Səməndərovun, İ.M.Rəhimovun, M.H.Hümbətovun, İ.B.Ağayevin, Y.İ.Skuratovun, V.M.Lebedevin, V.İ.Zubkovun, F.R.Sundrovun, S.İ.Dementyevin, R.A.Dyaçenkonun, A.İ.Traxovun,

P.P.Osipovun, V.B.Malininin, V.İ.Seliverstovun, A.M.Yakovlevin, İ.P.Petruxinin, Q.P.Butarovun, Q.Q.Marşakovun və bir sıra başqa tədqiqatçı alimlərin əsərlərində tapmışdır.

Azərbaycan Respublikası cinayət qanunvericiliyinin təzələnməsindən keçən dövr ərzində cinayət hüququnun cəzalar sisteminə azadlığın məhdudlaşdırılması növündə yeni cəza tədbirinin əsas cəza kimi daxil edilməsinə baxmayaraq, onun təhlili ilə bağlı müstəqil və kompleks tədqiqatlar aparılmamışdır.

Təbii olaraq yuxarıda adları çəkilən tədqiqatçı alimlər cinayət hüququnun cəza institutunun tədqiqi ilə bağlı mühüm təhlillər aparmış, bu sahədə xeyli uğurlar qazanılmış, azadlığın məhdudlaşdırılması növündə cəzanın hərtərəfli tədqiqi isə başa çatdırılmamışdır. Elmi-nəzəri müşahidələr və məhkəmə təcrübəsinin ümumiləşdirmələri şəhadət verir ki, azadlığın məhdudlaşdırılması cəzası və onun icra mexanizmi ilə bağlı problemlərin bir çox sferaları hələ də böyük və dərin tədqiqatlara möhtacdır. Məhz belə ətraflı tədqiqatların aparılması nəticəsində məhkəmə səhvlərindən qaçmaq və cinayətkarlıqla mübarizədə azadlığın məhdudlaşdırılması cəzasının rolunun yüksək səmərəliliyindən danışmaq mümkün ola bilərdi.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini azadlığın məhdudlaşdırılması cəzasının cinayətkarlıqla mübarizədə rolunun müəyyən edilməsi, bu cəzanın cəzalar sistemindən çıxarılması üçün hər hansı obyektiv səbəblərin olmamasının aydınlaşdırılması və bununla bağlı bir sıra elmi-nəzəri və təcrübi əhəmiyyətli təkliflərin verilməsi təşkil edir. Başlıca diqqət azadlığın məhdudlaşdırılması növündə cəzanın bəzi müsbət cəhətlərinin, habelə böyük islahedici və tərbiyəvi xüsusiyyətlərinin nəzərdən keçirilməsinə yönəldilmişdir.

**Göstərilən məqsədə nail olmaq üçün tədqiqatın qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:**

1) Azadlığın məhdudlaşdırılması cəzasının cəzalar sistemində yerinin müəyyən edilməsi;

2) Azadlığın məhdudlaşdırılması cəzasının anlayışına tərif verilməsi, əsas cəza növü kimi onun spesifik cəhətlərinin təhlil olunması və cəza sisteminə daxil olan digər cəzalarla müqayisədə onun xarakterik xüsusiyyətlərinin nəzərdən keçirilməsi;

3) Azadlığın məhdudlaşdırılması cəzasının cinayət hüququnun cəzalar sistemindən çıxarılmasının məqsədəuyğun olmamasının aydınlaşdırılması və onun digər cəza – azadlıqdan məhrum etmə cəzası ilə müqayisədə daha islahedici xassəsinin təhlil edilməsi;



4) Azadlığın məhdudlaşdırılması cəzasının tətbiqi və icrası mexanizminin təkmilləşdirilə bilməsi ilə bağlı irəli sürülən təklif və tövsiyələrin araşdırılması;

5) Azadlığın məhdudlaşdırılması cəzasının təkmilləşdirilməsi məsələlərinin təhlili əsasında bu cəzanın bir zaman icrasını tənzimləyən subyektlərin fəaliyyətində bəzi dəyişikliklərin edilməsinə dair təkliflərin nəzərdən keçirilməsi;

6) Azadlığın məhdudlaşdırılması cəzasının effektivliyi ilə əlaqədar problemlərin həllinə dair məsələlərin təhlil edilməsi.

**Tədqiqatın metodoloji əsasları.** Dissertasiya tədqiqatının metodoloji əsasını dialektik materializmin idrak nəzəriyyəsi kompleksi, formal məntiqin dərketmə qanunları, habelə azadlığın məhdudlaşdırılması növündə cəzaya dair müddəaların öyrənilməsinə dair cəza haqqında təlim təşkil edir. Dissertasiyanın yerinə yetirilməsində müqayisəli, sosioloji, statistik və digər dərketmə metodlarından istifadə edilmişdir.

**Tədqiqat işinin nəzəri əsasını** cinayət hüququ nəzəriyyəsi (Ümumi hissə), cinayət prosesi, kriminologiyanın cinayət cəzalarının tətbiqi və icrası ilə bağlı hüquqi məsələlərin təhlilindən bəhs edən əsərlər və monoqrafik tədqiqatlar təşkil edir.

**Tədqiqat işinin empirik bazası.** Tədqiqat işinin yerinə yetirilməsi gedişində məhkəmə təcrübəsinin materialları araşdırılmış, praktiki materialların ümumiləşdirilməsi nəticəsində azadlığın məhdudlaşdırılması növündə cəzanın vaxtı ilə tətbiqi əsasları və icrasının tənzim edilməsi ilə bağlı yekun nəticələrdən istifadə edilmişdir. Bəzi problemlərin həlli üçün müəllif tərəfindən əldə edilmiş yekun müddəalardan və digər zəruri məlumatlardan istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya tədqiqatının elmi yeniliyi ondan ibarətdir ki, azadlığın məhdudlaşdırılması növündə cəza, **ilk dəfə olaraq,** dissertasiya tədqiqatı səviyyəsində təhlil edilir, onun vaxtı ilə cinayət cəzaları sistemindəki yeri, cinayətkarlıqla mübarizədə cinayət-hüquqi vasitələrdən biri kimi mühüm rolu, habelə Cinayət Məcəlləsinin 53-cü maddəsinin ləğv edilməsinin əsassız olması ətraflı və kompleks təhlilə məruz qoyulur.

Dissertasiyada azadlığın məhdudlaşdırılması növündə cəzanın spesifik xüsusiyyətləri ilə bağlı olan bəzi məsələlərə aydınlıq gətirilir, haqqında söhbət gedən cəzanın çəkilməsinin xüsusi rejimi ilə əlaqədar bir sıra məsələlər nəzərdən keçirilir, həmin cəzanın məhkumların islahında vaxtı ilə oynadığı müsbət rolu təhlil edilir, bu növ cəzaya məhkum olunmuş şəxslərin azadlığı buraxıldıqdan sonra düşdüyü mühitə və bütövlükdə cəmiyyətə

adaptasiya olunmasına dair bir sıra mühüm problemlərə toxunulur. Bundan başqa, 53-cü maddənin Cinayət Məcəlləsindən çıxarılması ilə bağlı təklifin humanistləşdirilməkdə olan cinayət qanunvericiliyinin prinsiplərinə uyğun olmaması məsələsinə xüsusi diqqət yetirilir.

Tədqiqat işində azadlığın məhdudlaşdırılması cəzasının digər cəzalarla müqayisədə təminatverici rolu qeyd olunur, onun məhkumlara və onların islahına psixoloji-mənəvi təsirinin müsbət cəhətləri ilə bağlı praktiki əhəmiyyətə malik bəzi tövsiyə və təkliflər verilir, həmin cəzanın ləğvinin müasir şəraitdə cinayətkarlıqla cinayət-hüquqi mübarizə işinə mənfi təsir göstərə biləcəyinə dair bir sıra mülahizələr irəli sürülür.

**Tədqiqatın elmi yeniliyini özündə ifadə edən elmi müddəalar müdafiəyə çıxarılır:**

1. Müasir dövrün cinayət hüquq siyasəti cəzanın humanistləşdirilməsi istiqamətini əsas götürərək azadlıqdan məhrum etmə cəzasının tətbiqinin tədricən məhdudlaşdırılmasını və azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza növlərinin (cərimə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması və s.) tətbiqinin genişləndirilməsini məqbul hesab edir.

2. Azadlığın məhdudlaşdırılması cinayət cəzası kimi ədalət mühakiməsinin qarşısında duran vəzifələri onun humanistləşdirilməsi istiqamətində həll etməyə imkan verir və cəmiyyətin sosial və siyasi-hüquqi tələblərinə uyğun gəlir.

3. Birləşmiş Millətlər Təşkilatının (BMT) cinayətkarlığın qarşısının alınması və hüququ pozanlarla rəftar üzrə Konqresləri azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza tədbirlərinin genişləndirilməsini tövsiyə etmişdir. Dünyanın bir çox ölkələrində azadlığın məhdudlaşdırılması cəzası məhkumun olduğu yeri daim müəyyən etməyə imkan verən elektron qolbaqdan istifadə etməklə geniş tətbiq edilir.

4. Azadlığın məhdudlaşdırılması əsas cəza növü olub, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Xüsusi hissəsinin bir çox cinayət tərkiblərində ayrıca, yaxud azadlıqdan məhrum etməyə alternativ formada nəzərdə tutulurdu.

5. Azadlığın məhdudlaşdırılmasının tətbiqi ilə cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslərin sayının əhəmiyyətli dərəcədə azalmasına kömək edir. Bu cəza cinayətkarlıqla mübarizədə cəzaya qənaət edilməsi vasitələrindən biri kimi çıxış edirdi.

6. Belə bir vəziyyətdə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin cəza sistemindən azadlığın məhdudlaşdırılması cəza növünün çıxarılması özünü doğrultmayan addımdır. Buna görə də azadlığın məhdudlaşdırılması cəza növünün Azərbaycan Respublikasının Cinayət



Məcəlləsinin cəza sisteminə daxil edilərək yenidən bərpa edilməsi zəruri və vacib məsələdir.

7. Azərbaycan Respublikasında azadlığın məhdudlaşdırılması cəzasının mövcud olduğu dövrdə onun icrası üçün faktiki olaraq baza mövcud olmamışdır. Həmin cəzanın icrası demək olar ki, formal xarakter daşımışdır. Görünür, məhz bu amil azadlığın məhdudlaşdırılması cəzasının cinayət qanununun cəza sistemindən çıxarılmasına səbəb olmuşdur. Hesab edirik ki, Azərbaycan Respublikasında penitensiar xidmət beynəlxalq standartlara uyğun olaraq köklü şəkildə yenidən qurulduğu kimi, azadlığın məhdudlaşdırılması cəzası bərpa edildikdən sonra onun icrası üçün zəruri olan baza beynəlxalq təcrübə nəzərə alınmaqla təşkil ediləcəkdir.

8. Azadlığın məhdudlaşdırılması cəzasının spesifik xüsusiyyətləri, azadlıqdan məhrum etmə cəzası ilə müqayisədə üstün cəhətləri, məhkumların islah olunmasına və yenidən tərbiyə edilməsinə təsir dairəsinin genişliyi və s. məsələlər haqqında biliklər sistemləşdirilir, genişləndirilir, təhlil edilən cəzanın məhkumların cəzadan azad edildikdən sonra müvafiq mühitə və bütövlükdə cəmiyyətə daha tez və asan adaptasiya olunmasının mahiyyəti açılır, həmin cəzanın çəkilməsi rejiminin spesifik xüsusiyyətləri aydınlaşdırılır.

9. Azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş şəxslərin nəzarət altında saxlandığı xüsusi təyinatlı müəssisələrin fəaliyyət rejimi ilə bağlı olan bəzi nəzəri məsələlər də az əhəmiyyət kəsb etmirlər. Məhz bu xüsusiyyət haqqında söhbət gedən cəzanın azadlıqdan məhrum etmə cəzası ilə müqayisədə prioritetlərini təzahür etdirir. Ona görə də azadlıqdan məhrumetmə cəzasının yeganə alternativi olan və Cinayət Məcəlləsinin 53-cü maddəsində nəzərdə tutulmuş cəzanın ləğv edilməsi cəzanın tətbiqi təcrübəsində ağırlıq mərkəzinin yenidən azadlıqdan məhrum etmə cəzasının üzərinə düşməsinə imkan yaradır.

10. Dissertasiya tədqiqatının nəzəri cəhətdən əhəmiyyətinə xidmət edən daha bir cəhət ondan ibarətdir ki, bu cəza növü ilə bağlı bir sıra xüsusiyyətlər özünün daha geniş tətbiq edilməsinə möhtacdır. Bu isə gələcəkdə həmin cəzanın daha da humanistləşdirilməsi ilə əlaqədar bəzi problemlərin həllini sürətləndirir. Cinayət Məcəlləsinin 53-cü maddəsinin ləğvi isə, bu sürətin intensivliyinin qarşısını alır. Qanunvericinin belə cəhətləri diqqətdən yayındırması yalnız təəssüf doğurur.

11. Təqdim olunan dissertasiya tədqiqatının praktiki əhəmiyyəti onun Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyinin cəza sisteminin təkmilləşdirilməsi üzrə müvafiq tövsiyə və təkliflərin irəli sürülməsində öz əksini tapır. Tədqiqat işinin müddəaları hüquq-mühafizə

orqanlarının cinayətkarlıqla mübarizə fəaliyyətində tətbiq edilə bilər. Belə ki, həmin müddəaların böyük praktiki əhəmiyyəti vardır. Lakin həmi cəza növünün Cinayət Məcəlləsindən çıxarılması praktiki əhəmiyyətli profilaktiki tədbirlərin təsir gücünü azaldır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya tədqiqatının praktiki əhəmiyyəti ondan ibarətdir ki, burada aparılmış təhlillər əsasında əldə edilmiş yekun müddəalardan gələcəkdə tədqiqat işlərinin yerinə yetirilməsində istifadə oluna bilər. Tədqiqatın nəzəri müddəaları, ümumiyyətlə tədqiqatın özü "Cinayət hüququ"nun Ümumi və Xüsusi hissələrinin tədrisində tətbiq edilə, tələbə və dinləyicilər ondan faydalana bilərlər. Dissertasiyanın bəzi təhlilləri cəzalarla bağlı cinayət qanunvericiliyinin təkmilləşdirilməsi işinə fayda verə bilər.

Tədqiqat işinin mühüm praktiki əhəmiyyəti də vardır. Belə ki, dissertasiyada irəli sürülən təkliflər, verilən tövsiyələr cinayətkarlıqla mübarizədə, cinayətlərin qarşısının alınmasında və onların profilaktikasında hüquq -mühafizə orqanlarının fəaliyyəti üçün səmərəlidir. Tədqiqat işinin praktiki əhəmiyyəti bir də ondan ibarətdir ki, onun bir sıra yekun nəticələri dünya birliyi ölkələrinin analoji müsbət təcrübəsinə və qanunun tətbiqi praktikasına əsaslanır. Bu isə, o deməkdir ki, dissertasiyanın bəzi yekun müddəaları bir sıra beynəlxalq standartların təkmilləşdirilməsinə xidmət edə bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya tədqiqatının əsas nəzəri və yekun müddəaları, nəticələri Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Cinayət hüququ və kriminologiya" kafedrasında müzakirə edilmişdir. Müzakirə və dinləmələrdə verilmiş təkliflər müəllif tərəfindən nəzərdə alınaraq, tədqiqat işinin məzmununa daxil edilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya tədqiqatı girişdən, 12 paraqrafı əhatə edən 4 fəsildən, nəticədən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.



## İŞİN ƏSAS MƏZMUNU

Tədqiqat işinin **giriş** hissəsində dissertasiya mövzusunun aktuallığından, tədqiqat mövzusunun elmi işlənmə dərəcəsindən, tədqiqatın məqsəd və vəzifələrindən, tədqiqat işinin obyekt və predmetindən, işlənmə metodologiyası və metodikasından, tədqiqatın nəzəri əsası və empirik bazasından, elmi yeniliyindən, müdafiəyə çıxarılan müddəalardan, habelə tədqiqatın nəzəri və praktiki əhəmiyyətindən bəhs edilir.

Dissertasiyanın birinci fəsli "**Azadlığın məhdudlaşdırılmasının cəza sistemində yeri"** adlanır. Bu fəsil 4 paraqrafı əhatə edir.

**"Azadlığın məhdudlaşdırılmasının anlayışı"** adlanan birinci paraqrafda qeyd olunur ki, cəzanın sistemi dedikdə, bir-biri ilə qarşılıqlı əlaqədə olan, müəyyən funksiyaya malik, ağırlığına görə qanunla müəyyən edilən qaydada düzülmüş cəza növlərinin qəti siyahısı nəzərdə tutulur. Cəza növlərinin sistemi bütövlükdə və cəza növlərinin hər bir ayrı-ayrılıqda özündə məhkum olunan şəxsə təsir vasitələrinin kompleksini ehtiva edir.

Azadlığın məhdudlaşdırılması cinayət qanunvericiliyinin cəzalar sisteminə əsas cəza kimi daxil edilmişdi. O, müddətli xarakterə malik idi. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 53.1-ci maddəsinə uyğun olaraq "azadlığın məhdudlaşdırılması ittiham hökmü çıxarılanadək 18 yaşı tamam olmuş məhkumların cəmiyyətdən təcrid olunmadan, lakin nəzarət altında xüsusi müəssisələrdə saxlanmasından ibarət" olan əsas cəza növü idi.

Bu cəza növü məhkumlara psixoloji təsiri nəzərdə tutur, onların davranışına nəzarət edilməsi və şəxsi azadlıqlarının məhdudlaşdırılmasından ötrü imkanlar yaradırdı. Bununla yanaşı o, məhkumların üzərində xüsusi müəssisələrdə mövcud olan rejimə əməl edilməsi, habelə onların tələbatlarını məhdudlaşdıran şəraitə tabe olması zərurəti ilə bağlı ağırlıqların qoyulması üçün imkan yaradırdı. Bu cəza özünəməxsus sosial dəyərə malik idi. O, məhkum olunan, lakin cəmiyyətdən təcrid edilməyən, əksinə, məhkum olunan və cəmiyyətdən müəyyən müddətə təcrid olunan şəxslərin cəzaçəkmə sistemində bir növ əlaqələndirici həlqə rolunu oynayırdı.

Bu fəslin ikinci paraqrafı **"Azadlığı məhdudlaşdırma cəza növünün (42.0.10-cu maddə) məhkumu əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum olunmaqla şərti məhkum etmədən (Respublikanın 1960-cı il Cinayət Məcəlləsinin 23-1-ci maddəsi) fərqi"** adlanır. Göstərilir ki, cinayət qanunun tələbinə əsasən məhkumu məcburi əməyə cəlb etməklə azadlıqdan şərti olaraq məhrum edərkən, məhkəmə tərəfindən ona, eyni zamanda, keçmiş SSR İttifaqı və Azərbaycan SSR-in cinayət qanun-

vericiliyində nəzərdə tutulmuş hallarda və qaydada əlavə cəza tədbiri də tətbiq edilə bilərdi.

Azərbaycan Respublikasının hazırda qüvvədə olan cinayət qanunvericiliyinə yeni əsas cəza növü kimi daxil edilmiş azadlığın məhdudlaşdırılması cəzası 1960-cı il Cinayət Məcəlləsinin 23-1-ci maddəsində nəzərdə tutulmuş məhkumu məcburi əməyə cəlb etməklə şərti olaraq azadlıqdan məhrum etmə cəzası ilə xeyli oxşar cəhətlərə malikdir. Lakin onların arasında bəzi müəyyən fərqlər də mövcuddur. Əvvələn, Cinayət Məcəlləsinin 53-cü maddəsi keçmiş Cinayət Məcəlləsinin 23.1-ci maddəsi ilə müqayisədə humanistliyi ilə seçilir. İkincisi, yeni qanunvericilikdə azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunan şəxslər barəsində əlavə cəzanın tətbiqi nəzərdə tutulmamışdır.

Birinci fəslin **"Azadlığın məhdudlaşdırılması cəza növünün islah işləri cəzasından fərqi"** adlanan üçüncü paraqrafında qeyd edilir ki, azadlığın məhdudlaşdırılması cəzası kimi, islah işləri də əsas və müddətli cəza növü kimi məhkəmə tərəfindən həmin cəzanın ancaq CM-nin Xüsusi hissəsinin maddələrində nəzərdə tutulduğu halda tətbiq edilirdi. İslah işləri cəzası əmək qabiliyyətli şəxslərə təyin edilə bildiyinə görə, bu cəzanın hamilə qadınlara, himayəsində azyaşlı uşağı olan qadınlara, yaşı on altıdan az olan yetkinlik yaşına çatmayanlara, habelə dəfələrlə cinayət törətmiş şəxslərə, daimi iş yeri olmayan şəxslərə, hərbi qulluqçulara təyin edilməsi məqsədəuyğun sayılmırdı. Azadlığın məhdudlaşdırılması cəza növündə olduğu kimi, islah işləri növündə cəzada da insan və vətəndaşın konstitusiya hüquq və azadlıqlarının və şəxsiyyətinin qanuni mənafelərinin müdafiəsi vacibdir.

İstər azadlığın məhdudlaşdırılması, istərsə də islah işləri müddətli cəza növləri sayılırlar. Hər iki cəza növünün fərqli cəhəti ondan ibarətdir ki, azadlığın məhdudlaşdırılması cəzasını nəzərdə tutan normada müddət məsələsi məhkumların kateqoriyasından asılı olaraq müəyyən edildiyi halda, islah işlərini nəzərdə tutan qanun normasında müddət bilavasitə sanksiyanın həddi ilə bağlıdır.

İslah işləri şəxsin məcburi əməyə cəlb edilməsi, məhkumların yalnız iş yeri üzrə əməyə məcburi cəlb edilməsi, əməyə cəlb etmənin müddəti və məhkumların qazancından dövlətin nəfinə pul tutulması ilə bağlıdır. Burada, əməyə cəlb etmənin mahiyyəti ondan ibarətdir ki, islah işlərində məhkumlar məcburi əməyə öz iradələrindən asılı olmayaraq cəlb olunurlar. Məhz belə əmək onların islah olunması vasitələrindən biri qismində çıxış edir. Məlum olduğu kimi, azadlığın məhdudlaşdırılması növündə cəza isə belə elementlərə malik deyil.



Birinci fəslin dördüncü paraqrafı **"Azadlığın məhdudlaşdırılmasının müəyyən müddətə azadlıqdan məhrum etmə cəza növündən fərqi"** adlanır. Göstərilir ki, müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası Cinayət Məcəlləsinin 55-ci maddəsində nəzərdə tutulmuşdur. Həmin maddəyə uyğun olaraq, müəyyən müddətə azadlıqdan məhrum etmə məhkumun məntəqə tipli, ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisəsinə və ya həbsxanaya yerləşdirilməsi yolu ilə onun cəmiyyətdən təcrid edilməsindən ibarətdir. Azadlıqdan məhrum etmə növündə cəza məhkumun üzərinə onun adi həyatda görmədiyi ağırlıqlar qoyur, onu məhz qanunla ciddi müəyyən olunmuş xüsusi rejimdən asılı vəziyyətə salır.

Azadlığın məhdudlaşdırılmasının müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasından fərqinə dair yekun nəticələr bunlardan ibarətdir. Birincisi, Cinayət Məcəlləsinin 53-cü və 55-ci maddələrinin məzmunundan göründüyü kimi, azadlığın məhdudlaşdırılması şəxsin cəmiyyətdən təcrid edilməməsi ilə, əksinə, azadlıqdan məhrum etmə təqsirkarın cəmiyyətdən təcrid olunması ilə bağlıdır. İkincisi, əgər azadlığın məhdudlaşdırılması cəzasında nisbətən böyük olmayan ictimai təhlükəlilikdən ibarət olmayan əməllərə görə cəza təyin edilirsə, azadlıqdan məhrum etmə ağır ictimai təhlükəli nəticələrə səbəb olan cinayətlərə görə təyin edilir. Üçüncüsü, azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunan şəxslər cəzasını cəmiyyətdən təcrid edilməməklə xüsusi müəssisələrdə nəzarət altında çəkirlər. Azadlıqdan məhrum edilən şəxslər isə, cəza çəkmək üçün məhkəmənin hökmü ilə müəyyən edilmiş müvafiq rejimli penitensiar müəssisələrə göndərilir. Dördüncüsü, əgər azadlığın məhdudlaşdırılması cəzası yetkinlik yaşına çatmayan şəxslərə və qanunda göstərilən digər kateqoriya vətəndaşlara tətbiq edilmirsə, azadlıqdan məhrum etmə cəzası on səkkiz yaşı tamam olmayan şəxslərə (ağır və xüsusilə ağır cinayətlərə görə) də təyin edilir, həm də məhkəmənin hökmündə belə məhkumların cəzaçəkmə müəssisəsinin konkret növü göstərilir. Beşincisi, azadlıqdan məhrum etmə cəzasına məhkum olunan şəxslərin cəmiyyətdən təcrid edilmələri özündə məcburiyyət elementini ehtiva edir ki, azadlığın məhdudlaşdırılması cəzası belə elementə malik deyildi. Altıncısı, əgər azadlığın məhdudlaşdırılması cəzasının cinayət-hüquqi təbiətini cəmiyyətdən təcrid etməmə və məhkumun bunsuz da islah olunacağına inam təşkil edirsə, azadlıqdan məhrum etmə cəzasının cinayət-hüquqi təbiətinin müəyyənedici xüsusiyyəti qismində məhz təcridetmə və şəxsin bunsuz islah olunmayacağına inam çıxış edir.

Dissertasiyanın ikinci fəsli **"Azadlığın məhdudlaşdırılması cəzasının tətbiqi və icrası mexanizmi"** adlanır və üç paraqrafdan ibarətdir.

Fəsin **“Azadlığın məhdudlaşdırılması cəzasının sanksiyaların qurulmasında yeri və rolu”** adlanan birinci paraqrafında qeyd edilir ki, sanksiyaların qurulmasında obyektiv və subyektiv amillərin rasional və emosional cəhətlərinin nisbəti düzgün müəyyən edilməlidir. Bu cəhətlər bir daha göstərir ki, sanksiyaların qurulmasında subyektiv amillərin rolu inkar edilə bilməz.

Məlum olduğu kimi, məhkum olunmuş şəxs tərəfindən yeni cinayətin törədilməsinin qarşısının alınması cinayət hüququnda cəzanın məqsədlərindən biri hesab olunur və hüquq ədəbiyyatında buna cəzanın xəbərdaredici məqsədi adı verilmişdir. Diqqətdən kənarda qalmasa da, cəzanın bu məqsədinin cinayət-hüquqi sanksiyaların qurulmasında qanunverici üçün elə bir xüsusi əhəmiyyəti olmur. Cəzanın xüsusi xəbərdaredici məqsədinə cəzanın islah etmək və yenidən tərbiyələndirmək kimi məqsədləri daha yaxındır.

Cinayət-hüquqi sanksiyaların tətbiqində ədalət prinsipinin tələblərinin və şərtlərinin nəzərə alınması cinayət qanunvericiliyinin mühüm tələblərindən biridir, çünki bu, vətəndaşların konstitusiya hüquq və azadlıqlarının cinayət-hüquqi müdafiəsindən, habelə təminatından irəli gəlir. Buna müvafiq surətdə Cinayət Məcəlləsinin 8.1-ci maddəsinə uyğun olaraq, cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır.

Təhlil olunan məsələnin istiqamətləri baxımından, humanizmin sosial-siyasi mahiyyətinin də mühüm əhəmiyyəti vardır. Belə ki, cinayət-hüquqi sanksiyaların qurulması məsələsi şəxsiyyətlə cəmiyyət arasında qarşılıqlı münasibətlərə və əlaqəyə dair ümumi problemin tərkib hissəsi kimi təzahür edir və bunun həllindən ötrü, ilk növbədə, humanizmin azadlıq və məsuliyyət, ədalət və insana qayğı kimi elementlərindən istifadə olunması zərurəti yaranır.

Bu fəslin ikinci paraqrafı **“Azadlığı məhdudlaşdırma cəzasının tətbiqi əsasları”** adlanır. Qeyd edilir ki, azadlığın məhdudlaşdırılması cəzasının dəyərlərindən biri məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzalar qrupunu cəmiyyətdən təcridetmə ilə bağlı olan cəzalarla birləşdirərək cəza sisteminin əsas bəndi (həlqəsi) qismində çıxış etməsindən ibarətdir. Buna görə də azadlığın məhdudlaşdırılması cəzasının tətbiqi məhkəmələrdən xüsusi diqqət tələb edirdi. Şərh edilən cəza növünün tətbiqi əsaslarının mahiyyətini də məhz bu cəzaların tətbiqi zamanı həmin cəzaya məhkum oluna bilən şəxslərin dairəsini diqqət mərkəzində saxlamaq təşkil edir.



Azadlığın məhdudlaşdırılması zamanı məhkumun, məsələn, hərbi və ya xüsusi rütbədən, yaxud fəxri addan və ya dövlət təltifindən məhrumetmədə olduğu kimi ayrı-ayrı subyektiv hüquqları deyil, onun şəxsi azadlığını təşkil edən çoxşaxəli hüquqları məhdudlaşdırılır. Lakin azadlıqdan məhrumetmədən fərqli olaraq, məhkumun şəxsi azadlığının boğulması dərəcəsi o qədər də nəzərə çarpmır və məhkumun xüsusi müəssisəyə yerləşdirilərək, onun gediş-gəlişinin həmin müəssisə hüdudlarında məhdudlaşdırılmasında ifadə olunur. Məhkum xüsusi rejimə məruz qalır, onun davranışına nəzarət edilir. Bu məhdudiyyətlər məcmu halda məhkumun cəmiyyətdən təcrid edilməsini təşkil etmir. Bu baxımdan, azadlığın məhdudlaşdırılması cəzasının tətbiqi əsaslarına xidmət edən amillərdən biri cəzanın psixoloji təsir gücünə malik olmasında təzahür edir. Yəni tətbiq edilən cəza xüsusi müəssisədə özü də nəzarət altında çəkilir. Burada, ən başlıca məqsəd cəzanın məqsədinə nail olunmasından ibarətdir.

İkinci fəslin üçüncü paraqrafı **“Azadlığın məhdudlaşdırılması cəzasının icrası mexanizmi”** adlanır. Burada göstərilir ki, cinayət cəzalarının icrası dövlətin səlahiyyətli orqanlarının fəaliyyətinin spesifik istiqaməti olub, cinayətkarlıqla mübarizənin və onun profilaktikasının reallaşdırılmasının mühüm vəzifələrindən biridir. Həmin vəzifə cinayət cəzasının başlıca olaraq aşağıdakı məqsədlərə nail olunması yolu ilə həyata keçirilir:

a) Sosial ədalətin bərpa olunması;

b) Məhkumun islah edilməsi;

c) Həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınması.

Azadlığın məhdudlaşdırılması cəzasının üstünlüklərindən biri ondan ibarət idi ki, o, cəzaların iki qrupunu (məhkumun cəmiyyətdən təcrid edilməsi və edilməməsi ilə bağlı azadlığın məhdudlaşdırılması) birləşdirməklə, cəzalar sistemində mühüm həlqə qismində çıxış edirdi. Həmin cəza hüquqların və azadlıqların məhdudlaşdırılmasının həcmi baxımından, məhkumun cəmiyyətdən təcrid edilməməsi ilə bağlı olan digər cəzaları üstələyirdi.

Azadlığın məhdudlaşdırılması cəzasının icrası zamanı məhkumun ayrı-ayrı subyektiv hüquqları məhdudlaşdırılmırdı. Belə cəzanın çəkilməsi zamanı məhkum şəxsi azadlıqdan və bir sıra hüquqlardan məhdudlaşdırmaya məruz qalırdı. Bu cəzaya məhkum olunmuş şəxsin cəzasının icrası müddəti məhkumun xüsusi müəssisədə qeydiyyata alınması əsasında

məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə icra məmuru və ya müəssisənin müdiriyyəti tərəfindən verilən sərəncamla tənzim edilirdi.

Azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş şəxslər cəzanı, bir qayda olaraq, yaşayış yerinə yaxın olan ərazidə yerləşən xüsusi müəssisələrdə çəkirdilər. Cəzaları azadlığın məhdudlaşdırılması növündə cəza ilə əvəz edilmiş məhkumlar isə, cəzanı çəkmək üçün digər penitensiar müəssisələrə göndərilə bilərdilər. Bu cəzanı icra edən xüsusi müəssisə müdiriyyəti cəzanı çəkmək üçün göndərilən şəxslərin əmək və məişət təminatına yardım göstərməyə borclu idilər. Azadlığın məhdudlaşdırılması cəzasını çəkən şəxslər nəzarət altında olduqlarına görə, onlar qanunla müəyyən edilmiş qaydada aşağıdakıları yerinə yetirməyə borclu idilər:

1) Qüvvədə olan qanunların və digər normativ-hüquqi aktların tələblərini yerinə yetirmək;

2) Xüsusi müəssisə müdiriyyətinin xüsusi icazəsi olmadan onun ərazisini özbaşına tərk etməmək;

3) Bu cəzaya məhkum olunmuş şəxslər üçün nəzərdə tutulmuş yataqxananın kommunal-məişət xərclərini ödəmək və xüsusi müəssisə müdiriyyətinin icazəsi olmadan oranı tək etməmək;

4) Penitensiar müəssisənin ərazisində abadlaşdırma işlərində və bu qəbildən olan digər tədbirlərin həyata keçirilməsində iş vaxtından əlavə, həftədə iki saatdan artıq olmamaqla növbə ilə ödənişsiz (haqqı ödənilməməklə) iştirak etmək;

5) Penitensiar müəssisənin müdiriyyəti tərəfindən müəyyən edilmiş nümunədə şəxsiyyəti təsdiq edən sənəd daşımaq.

Tədqiqat işinin üçüncü fəsli **"Azadlığın məhdudlaşdırılması cəzasının təkmilləşdirilməsi məsələləri"** adlanır və üç paraqrafdan ibarətdir.

**"Azadlığın məhdudlaşdırılması cəzasının icrasını tənzim edən subyektlər"** adlanan birinci paraqrafda qeyd edilir ki, cəzaların icrası və həmin icranı tənzim edən subyektlərin fəaliyyəti ümumdövlət fəaliyyətinin tərkib hissəsidir və o, özünəməxsus spesifik istiqamətlərə malikdir. Cəzaların icrası cinayətkarlıqla mübarizə vəzifəsini reallaşdıran vasitələrdən biridir.

Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin cəzasının icrası və çəkilməsi qaydalarının həyata keçirilməsi mexanizmi, bu cəzanın xüsusiyyətlərinə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul edilmiş Daxili İntizam Qaydaları (DİQ) ilə müəyyən edilirdi. Azadlığın məhdudlaşdırılması cəzasını icra edən subyektlər cəzanın məqsədinə nail olunmasına aşağıdakılardan ibarət olan əsas vəzifələr kompleksinin həyata keçirilməsi yolu ilə müvəffəq olurdular:



1) Məhkəmə hökmünün cinayət, cəzaların icrası qanunvericiliyi ilə və digər qanunvericiliklə müəyyən edilmiş qaydalara uyğun surətdə icra edilməsi;

2) Məhkumların islah edilməsi prosesinin təmin edilməsi;

3) Azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş şəxslərin hüquq və azadlıqlarının, qanunla mühafizə edilən mənafelərinin qorunmasının təmin edilməsi;

4) Azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş şəxslərin cəzasının icrası zamanı qanunçuluğun təmin edilməsi;

5) Bu cəzaya məruz qalmış şəxslərin, cəza-icra müəssisələrinin (xüsusi müəssisələrin) işçi heyətinin və bu müəssisələrdə olan digər şəxslərin təhlükəsizliyinin təmin edilməsi;

6) Həmin cəzaya məhkum olunmuş şəxslərin xüsusi müəssisələrdə yeni cinayət törətməsinin qarşısının alınmasının (xüsusi prevensiyanın) təmin edilməsi;

7) Azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş şəxslərin sağlamlığının qorunmasının təmin edilməsi;

8) Azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş şəxslərin cəzasını çəkib qurtardıqdan və azad edildikdən sonra cəmiyyətə sosial adaptasiyasına dair fəaliyyətin təşkil edilməsi və s.

Azadlığın məhdudlaşdırılması cəzasının icrasını tənzim edən subyektlərin əksəriyyətini cəza-icra sisteminin xüsusi rütbəyə malik olan əməkdaşları təşkil edirlər. Xüsusi müəssisələrin rütbəli şəxsləri olan həmin subyektlər müəyyən hüquqlardan istifadə etməklə və müəyyən vəzifələri yerinə yetirməklə xüsusi müəssisənin qarşısında duran vəzifələrin icrasına nail olunması üzrə əsas yükün daşıyıcıları idilər.

Bu fəslin ikinci paraqrafı **"Azadlığın məhdudlaşdırılması cəzası və məhkumların əməyə cəlb edilməsinin vəziyyəti"** adlanır. Burada göstərilir ki, cinayət cəzasına məhkum olunmuş şəxslərin əməyə cəlb edilməsi cəzaların icrası qanunvericiliyi ilə daha ətraflı və dürüst müəyyən edilmişdir. Belə ki, islahetmənin bu vasitəsinin tətbiqi ilə məhkumların vacib hüquqlarına, o cümlədən əmək hüququna toxunulur. Əməyə cəlb etmənin mahiyyəti ondan ibarətdir ki, hər bir məhkum fiziki və əqli qabiliyyətinə uyğun olaraq işləməlidir.

Azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş şəxslər xüsusi müəssisənin yerləşdiyi inzibati ərazi vahidi hüdudlarında işləməli idilər. Bu kateqoriya şəxslərin əməyi əmək qanunvericiliyi ilə tənzimlənirdi. Əməyə belə cəlbetmə cəza-icra müəssisələrinin müdiriyyəti ilə istehsalat obyektləri rəhbərləri arasında bağlanan müqavilə əsasında həyata

keçirilir. Həmin müqavilədə tərəflərin öhdəlikləri və onlara əməl edilməməsinə görə məsuliyyət müəyyən edilir. Qeyd etmək lazımdır ki, məhkumlar hər cür işlərə cəlb edilə bilməzlər. Cəza-icra müəssisələrinin DİQ ilə məhkumların əməyə cəlb edilməsinin qadağan olunduğu işlərin və vəzifələrin siyahısı tərtib edilir.

Azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş şəxslərin əmək şəraiti Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyi tərəfindən müəyyən edilmiş bəzi istisnalarla ölkənin əmək qanunvericiliyi ilə tənzim edilirdi. Məhkumlara istirahət günləri verilir və onlar əmək qanunvericiliyində nəzərdə tutulan qaydada bayram günlərində işləmirdilər.

İctimai faydalı əmək azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş şəxslər üçün ən məqbul və əlverişli məşğuliyyət növü idi. Onlar belə şəraitdə məhkum olunanadək məşğul olduqları peşəni və ya ixtisası davam etdirmək imkanı əldə edir və belə şəraitdə öz peşəkarlıqlarını daha da təkmilləşdirirdilər. Bu isə, azadlığa buraxıldıqdan sonra onların yenidən öz əvvəlki peşə və ya ixtisasları üzrə çalışmalarına imkan yaradırdı. Yaxud müəyyən ixtisası olmayan məhkumun xüsusi müəssisənin istehsalat sahəsində qazandığı ixtisas ona azad edildikdən sonra həmin ixtisas üzrə işləməyə kömək edirdi. İxtisasa malik olan məhkumların azadlıqda olduqları vaxtda daha tez iş tapmalarına zəmin yaradırdı.

Beləliklə, azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş şəxslərin cəza çəkdikləri dövrdə əməyə cəlb edilməsi onların bir sıra həyati vacib olan problemlərinin həllinə kömək edirdi. Cəzanın bu növünü çəkib qurtaran şəxs cəmiyyətdə sosial həyatın reallıqlarına daha tez uyğunlaşır, cəmiyyət üzvləri ilə mənafe birliyinə tez bir zamanda daxil olurdu.

Üçüncü fəslin üçüncü paraqrafı **"Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilənlərin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi"** adlanır. Qeyd olunur ki, təyin edilmiş cəzanı tamamilə, yaxud da qismən çəkməkdən azad etmə cəzanın məqsədinə nail olmaq mümkün olduqda, humanizm və ya cəzaya qənaət prinsipinin tələblərinə uyğun qanunda xüsusi olaraq nəzərdə tutulan bir sıra hallar cinayət törədən şəxsi cəzadan tamamilə, yaxud qismən azad etməyə əsas verir.

Cinayət Məcəlləsinin 76.1-ci maddəsinin göstərişinə uyğun olaraq, məhkəmə məhkumu əsas cəzadan şərti olaraq vaxtından əvvəl azad edərkən onu əlavə cəzadan da tamamilə və ya qismən azad edə bilər. Cəzadan azad etmənin bütün növləri üçün ümumi olan bir sıra cəhətlər mövcuddur ki, onlar da aşağıdakılardan ibarətdir:



1) Araşdırılan institut cinayət törətməkdə təqsirli bilinən şəxsi ancaq dövlətin təsir tədbiri kimi məhkəmə hökmü ilə təyin edilən cəzadan azad edir;

2) Cəzadan azad etmə cinayət mühakimə icraatının müəyyən mərhələsi – ittiham hökmünün çıxarılması ilə bağlıdır. Cəzadan azad etmə cəza nəzərdə tutan - hökm qüvvəyə mindikdən cəzanın çəkilib qurtarmasınadək olan dövr ərzində mümkündür;

3) Cəzadan azad etmə ancaq məhkəmənin səlahiyyətinə (bağışlama və amnistiya aktı ilə azad etmə istisna olmaqla) aiddir;

4) Hökmün icra müddətinin keçməsi ilə cəzadan azad etmə, habelə ağır ruhi xəstəliyə tutulmuş məhkumların cəzadan azad edilməsi halları istisna olmaqla, digər hallarda cəzadan azad etmə məhkəmənin hüququdur;

5) Cəzadan azad etmədə ittihamedici hökm, habelə onunla tənzim edilən hüquq münasibətləri dəyişikliklərə məruz qalmır. Cəzadan azad etmə tam, yaxud müəyyən şərtlə və ya şərtsiz ola bilər.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilən məhkum cəzanın çəkilməmiş müddəti ərzində qəsdən, yaxud ehtiyatsızlıqdan cinayət törətdikdə də onun barəsində cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə haqqında qərar ləğv edilə bilər.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilən şəxs cəzanın çəkilməmiş müddəti ərzində ehtiyatsızlıqdan cinayət törətdikdə, cəzadan şərti azad etmə haqqında çıxarılmış qərarın qüvvədə saxlanması və ya ləğv edilməsini məhkəmə həll edir. Bunun üçün məhkəmə məhkumun şərti azad edilən andan onun ehtiyatsızlıqdan cinayət törətdiyi vaxta qədər keçən dövr ərzində davranışını nəzərə alır.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilən şəxs cəzanın çəkilmədiyi müddət ərzində qəsdən cinayət törətdikdə cəzadan şərti olaraq vaxtından əvvəl azad etməyə dair qərarın ləğvinə hər bir halda əsas yaranır. Belə hallarda, məhkəmə cəzadan şərti olaraq vaxtından əvvəl azad etməyə dair qərarı ləğv edir, şərti olaraq vaxtından əvvəl azad etmə ilə bağlı cəzanın çəkilməyən hissəsini və yenidən qəsdən törədilən cinayətə görə təyin edilən cəzanı toplamaqla Cinayət Məcəlləsinin 67-ci maddəsi ilə müəyyən edilmiş qaydada, yəni hökmlərin məcmusuna görə cəza təyin edir.

Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyi şəxsin hansı cəzalardan şərti olaraq vaxtından əvvəl azad edilməsinin mümkün olduğunu dürüst müəyyən edir. Məhz belə cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə aşağıdakı növ cəzaları çəkən məhkumlara tətbiq edilə bilər:

1) İslah işləri;

2) Hərbi xidmət üzrə məhdudlaşdırma;

3) Azadlığın məhdudlaşdırılması;

4) İntizam xarakterli hərbi hissədə saxlama;

5) Azadlıqdan məhrumetmə.

Cəzanın çəkilməmiş hissəsinin əvəz edilməsi zamanı yeni cəza cəzanın həmin növü üçün müəyyən edilmiş maksimum həddi aşmamalıdır. Bundan başqa, əvəz edən cəzanın müddəti azadlıqdan məhrumetmənin çəkilməmiş müddətini aşmamalıdır, çünki nəzərdən keçirilən institutun tətbiq edilməsinin məntiqi mahiyyəti məhkumun vəziyyətinin həqiqi mənada yüngülləşdirilməsini tələb edir.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi cəzanın icrası yeri üzrə məhkəmə tərəfindən məhkumun ərizəsinə əsasən tətbiq edilir. Ərizədə məhkumun gələcək islahı üçün məhkəmə tərəfindən təyin edilmiş cəzanın tam çəkilməsinə lüzum olmamasını sübut edən məlumatlar olmalıdır.

Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxsin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsinə aşağıdakılar xidmət edə bilər:

1) Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxs tərəfindən xüsusi müəssisənin DİQ-nin tələblərinə əməl edilməsi;

2) Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxsin xüsusi müəssisənin rejimi qaydalarına riayət etməsi;

3) Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxsin xüsusi müəssisənin yerləşdiyi ərazi vahidinin hüdudlarını müdiriyyətin icazəsi olmadan tərk etməməsi;

4) Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxs tərəfindən hər hansı hüquq pozuntusuna yol verilməməsi.

Əgər məhkəmə şəxsin məhkəmənin hökmü ilə təyin edilmiş cəza müddətinin qanunla tələb olunan hissəsini çəkdiyi, öz davranışı ilə islah edildiyi və onun məhkəmə tərəfindən təyin edilmiş cəzanı tam çəkməsinə lüzum olmadığı qənaətinə gələrsə, o, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz etmə haqqında qərar çıxara bilər.

Məhkəmənin rədd qərarı qəbul etdiyi hallarda təkrar ərizəyə həmin qərarın qəbul edildiyi gündən ən azı altı ay keçdikdən sonra baxıla bilər. Qeyd etmək lazımdır ki, məhkəmənin cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə haqqında təqdimatı rədd etməsi cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi haqqında təqdimat verilməsinə mane olmamalıdır.



Dissertasiyanın dördüncü fəsli **“Azadlığın məhdudlaşdırılması cəzasının effektivliyi”** adlanır və iki paraqrafdan ibarətdir.

**“Cəzanın effektivliyi anlayışı”** adlanan birinci paraqrafda göstərilir ki, cinayət cəzası təyin etmənin ümumi başlanğıcları cəzanın fərdiləşdirilməsini və onun effektli olmasını təmin edir. Cəzanın düzgün fərdiləşdirilməsi, hər bir halda, kriminal əməlin düzgün tövsifindən asılıdır. Əməlin düzgün tövsifi isə, qanunçuluq prinsipinin əsas tələblərindən biridir. Çünki düzgün olmayan tövsif təqsiri olmayan şəxsin məsuliyyətə cəlb edilməsinə, yaxud cinayəti törətməkdə təqsiri olan şəxsin məsuliyyətdən kənarda qalmasına səbəb ola bilər.

Cəza sanksiyası müəyyən edən qanunun təsirliliyi onun tətbiqi ilə yaranan nəticənin, qanunun ictimai məqsədinə olan nisbəti ilə əlaqələndirilir. Başqa sözlə, cəzanın məqsədinə nail olma dərəcəsi, onun təsirliliyinin meyarı qismində göstərilir. Qeyd etmək lazımdır ki, cəzanın məqsədi ictimai fikir tarixinin bütün dövrlərində mütərəqqi ideyalı mütəfəkkirləri düşündürən məsələlərdən biri olmuşdur.

Cəzanın ədalətli olması da onun effektivliyinin göstəricilərindən biridir. Cəza təyinində ədalətliliyə nail olunması – kifayətləndirici meyar əsasında, bütövlükdə əməli, əməlin nəticəsini, cinayətin motivinin törədilən əmələ məhkumun münasibətini nəzərə almaqla məsuliyyətin və cəzanın fərdiləşdirilməsini nəzərdə tutur.

Cinayət cəzasının effektivliyi xeyli dərəcədə belə cəzanı müəyyənləşdirən qanunun mükəmməlliyindən asılıdır. Cinayət qanununun özünəməxsus tam effektivliyi imkanları (belə qanunun cəmiyyətin inkişafının obyektiv qanunlarının tələblərindən doğması, qarşısına həyata keçirilə bilən məqsəd qoyması, qanunvericilik texnikasının tələblərinə cavab verməsi və s.) hələ cəzanın tətbiqini labüd şəkildə effektivli etmir.

Məlumdur ki, cəza təyin edilərkən törədilmiş sosial təhlükəli əməlin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 58-ci maddəsində məhkəmələrin konkret iş üzrə cəza təyin edərkən rəhbər tutmalı olduğu müəyyən tələblər (meyarlar) nəzərdə tutulmuşdur. Başqa sözlə, təyin edilən cəza aşağıdakı tələblərə cavab verməlidir:

1) Cəza ədalətli olmalıdır;

2) Cəza Cinayət Məcəlləsinin Xüsusi hissəsinin maddəsinin sanksiyası ilə müəyyən edilən hüdudlarda təyin edilməlidir;

3) Cəza təyin edilərkən Ümumi hissənin müddəaları nəzərə alınır;

4) Cinayətin xarakteri və təhlükəlilik dərəcəsi nəzərə alınmaqla cəza təyin edilir;

5) Cəza təyin edilərkən təqsirkarın şəxsiyyəti nəzərə alınır;

6) Cəza təyin edilərkən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar nəzərə alınır;

7) Cəza təyin edilərkən, cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınır.

Cinayət qanununun sanksiyasının sərhədlərinin dəqiq müəyyən edilməsi perspektivdə onun uğurlu tətbiqini xeyli asanlaşdırır və effektivli olmasını daha da artırır. Burada, sosial zərurətin nəzərə alınması da vacibdir. Məsələ burasındadır ki, sanksiyanın özünün diapazonunun həddi (genişliyi) problemi cinayət hüququ elminin problematik məsələlərindən biri hesab olunur. Belə problem mahiyyət etibarilə sanksiyada müəyyən edilən cəzanın aşağı və yuxarı hədləri ilə, cəzanın alternativ növlərinin dairəsi ilə və nəhayət, cəzanın bilavasitə effektivliliyi ilə bağlıdır.

Cinayət-hüquqi sanksiyaların optimal həddinin müəyyən edilməsi üzrə nəzəri mülahizələrdən aydın olur ki, həmin problem eyni zamanda da cəzanın effektivliliyi kimi mühüm cinayət-hüquqi problemin həllinə istiqamətləndirilmişdir və bunun cinayətkarlıqla mübarizədə böyük siyasi-hüquqi əhəmiyyəti vardır.

Göstərmək lazımdır ki, sanksiya dövlət məcburiyyət tədbiri xarakterinə malik olduğundan onun effektivliyini və çəkindirici təsirə malik olmasını təhlil etmək imkanı yaranır. Cinayət-hüquqi sanksiya bilavasitə hüquq normasında nəzərdə tutulan müəyyən qaydada davranma tələblərilə bağlıdır. Hüquqi öhdəlik müəyyən davranış tələbində ifadə olunur. Dövlət məcburiyyəti tələbinin üsulu kimi sanksiyasının hədəsi altında belə tələb yerinə yetirilir, davranışa qarşı qoyulan tələbə riayət edilmədikdə məcburiyyət hədəsinin (sanksiyasının) tətbiqi zəruri olur.

Cəzanın effektivliyi ilə bağlı olan məsələlərdən biri cəzanın qarşısında duran məqsəddir. Cəzanın məqsədlərinə nail olmaq istiqamətində onun nəticəli olması, yəni səmərəli olması cəzanın effektivliyinin meyarı olmasını qəbul etmək üçün irəli sürülə bilər.

Beləliklə, sosial ədalətin bərpası kimi cəzanın məqsədi aşağıdakılardan ibarətdir:

1) Cinayətin şəxsiyyətə, cəmiyyətə və dövlətə vurduğu ziyanın optimal kompensasiyası imkanı;

2) Cəzanın cinayətin ağırlığına, təqsirkarın şəxsiyyətinin təhlükəliliyinə, cəzanı yüngülləşdirən və ağırlaşdıran hallara uyğunluğu;



3) İkiqat cəzalandırmanın qadağan edilməsi (törədilmiş bir cinayətə görə yalnız bir cəza təyin edilə bilər);

4) Cəzanın tətbiqində insan ləyaqətinin alçaldılmasına, əzab və işgəncə verilməsinə yol verilməməsi.

Dördüncü fəslin **"Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilənlər arasında yenidən cinayətə qayıtma hallarının vəziyyəti (2005-2009-cu illər)"** adlanan ikinci paraqrafında göstərilir ki, cinayətin subyektiv cəhəti cinayət tərkibinin zəruri elementidir. Onun mövcud olmaması cinayət tərkibinin də mövcudluğunu istisna edir; dəqiq müəyyən olunması isə, konkret əməlin düzgün tövsifini və bunun nəticəsi kimi, təqsirkarın qanuni və əsaslandırılmış məsuliyyətini təmin edir. Beləliklə, cinayətin subyektiv cəhəti şəxsin bütövlükdə törədilən və onun ayrı-ayrı obyektiv xarakterli əlamətlərinə münasibətindən ibarət olan cinayətkar davranışının daxili psixoloji səciyyəsini bildirən qanunla müəyyən olunmuş əlamətlərin məcmusudur.

Cinayətin subyektiv cəhəti müxtəlif əqli, iradi və emosional məqamlarda, onların müxtəlif çalarlarında və həm əməlin özünə, həm də onunla bağlı olan və ondan əvvəl gələn, onunla eyni vaxtda mövcud olan və ya gələcək zamana aid olan birləşmələrdə ifadə olunur. Qeyd etmək lazımdır ki, törədilmiş ictimai təhlükəli əməldə şəxsin təqsirinin olub-olmaması, hər bir halda, müəyyən edilməlidir.

Cinayətin subyektiv cəhətinin mühüm hüquqi əhəmiyyəti vardır. Məhz bu subyektiv cəhətin köməyi ilə bir sıra praktiki əhəmiyyət kəsb edən hüquqi məsələlərin uğurlu həllinə nail olmağa imkan verilir. Cinayət məsuliyyətinin əsaslarının tərkib hissəsi kimi subyektiv cəhətin köməyilə cinayət hesab olunan əməllər cinayətə bənzəyən, lakin cinayət sayılmayan əməllərdən fərqləndirilir. Belə ki, təqsirlə əhatə olunmayan ictimai təhlükəli nəticə ilə bağlı əməllərin edilməsi, habelə ancaq qəsdən törədilməsi kriminal sayılan əməllərin ehtiyatsızlıqdan törədilməsi, eləcə də qanunla kriminallığı müəyyən məqsədlə, motivlə, yaxud şəxsi niyyətlə əlaqələndirilən əməllərin belə motiv, məqsəd və niyyət olmadan törədilməsi cinayət hesab olunmur.

Nəhayət kriminal əməyin xarakteri subyektiv cəhətin köməyi ilə müəyyən edilir. Eləcə də cinayətin ictimai təhlükəliliyi, təqsirkarın şəxsiyyətinin təhlükəliliyi xeyli dərəcədə təqsirin məzmunundan, təqsirlilik dərəcəsindən asılı olur.

Cinayətin subyektiv cəhətinin əhəmiyyəti kifayət qədər çoxplanlıdır. Bu hər şeydən əvvəl, onunla müəyyən olunur ki, subyektiv cəhət cinayət məsuliyyətinin tərkib hissəsidir. İctimai təhlükəli nəticələrin baş verməsini

şəxsin qabaqcadan görməsi mümkün olmadığı və işdə olan hallara görə şəxsin onları görməyə borclu olmadığı halda cinayətdən söhbət gedə bilməz.

Onu da qeyd edək ki, yuxarıda adı çəkilən paraqrafda subyektiv cəhətə müəyyən qədər toxunmağa çalışsaq da, əsas diqqətimizi 2005-2009-cu illər ərzində azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilənlər arasında yenidən cinayətə qayıtma hallarının vəziyyətini tədqiq etməyə yönəltmişik. Bu zaman, biz, bəzi statistik məlumatları diqqətə çatdırmaqla yanaşı, azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunan şəxslərin cəzasını çəkib qurtardıqdan sonra yenidən cinayətə qayıtma hallarına dair müəyyən nəticələrə də gəlmişik.

Dissertasiyanın **nəticə** hissəsində tədqiqatın ümumiləşdirilmiş yekun müddəaları öz əksini tapmışdır.

**Tədqiqat işi ilə bağlı müəllif tərəfindən aşağıdakı elmi məqalələr dərc edilmişdir:**


1 Azadlığın məhdudlaşdırılması cəzasının məhkumu məcburi əməyə cəlb etməklə şərti olaraq azadlıqdan məhrumetmə cəzasından fərqi // Qanun, №11 (187) / 2009, s.75-79.

2 Azadlığın məhdudlaşdırılması cəzasının icrası mexanizmi // Qanun, №07 (195) / 2010, s.83-87.

3 Эффективность наказания путем ограничения свободы // Молодой ученый. Ежемесячный научный журнал. Чита, 2010, №12 (23), Том 1, с.245-248.

4 Azadlığın məhdudlaşdırılması cəzasının sanksiyaların qurulmasında yeri və rolu // Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal). Bakı, 2011, №1(25), s.88-93.

5 Azadlığın məhdudlaşdırılması cəzasının ləğvini istisna edən səbəblər // Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal). Bakı, 2012, №1(29), s.204-207.

6 Azadlığın məhdudlaşdırılması cəzasının ləğvinə istisna lüzum vardırmı? // Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi Konfransının Materialları. Bakı, 2013, II cild, s.75-78.




## РЕЗЮМЕ


Диссертационная работа Челябиевой Тамелла Байрам кызы на тему «Роль наказания в виде ограничения свободы в борьбе с преступностью» по специальности 5611.01 – Уголовное право и криминология; Уголовно-исполнительное право представляет собой комплексное исследование монографического характера, учитывающее норму Общей части ( статью 53) об ограничении свободы и санкции нормы Особенной части действующего Уголовного Кодекса. В целом, проблема уголовно-правового наказания и их применения, занимая центральное место в уголовном праве, вместе с тем имеет особое значение в связи со своей сложностью. С этой точки зрения, в диссертационной работе подчеркивается ошибочность ликвидации из уголовного законодательства Азербайджанской Республики нормы наказания в виде ограничения свободы, важность этой формы наказания в деле исправления и социальной адаптации в обществе, лиц с ограниченной свободой, по сравнению с другими формами уголовного наказания, а также предлагается новая редакция содержания 53-й статьи Уголовного Кодекса, с учетом зарубежного правового опыта в данной сфере.

Структура диссертационная работа состоит из введения, четырех глав, двенадцати параграфов, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность выбранной темы исследования, отражена степень изученности темы, предмет и объект исследования, его цели и задачи, нормативная и эмпирическая база, теоретические и методологические основы, научная новизна исследования, информация об основных положениях диссертации, выносимых на защиту, а также информация о структуре диссертации и апробации основных результатов исследования.

**Первая глава** диссертации – «**Место ограничения свободы в системе наказания»** состоит из 4-х параграфов. Здесь показаны понятие ограничения свободы как формы наказания, другие виды наказаний - ограничение свободы в форме принудительного привлечения к труду в виде условного заключения, исправительные работы и временное лишение свободы, а также их отличие друг от друга.

**Вторая глава** диссертации – «**Механизм применения и исполнения наказания в виде ограничения свободы»** состоит из трех параграфов, где говорится о роли и месте ограничения свободы в разработке санкций, основы ее применения, а также исследуются вопросы, связанные с механизмом исполнения данных видов наказаний.

**Третья глава** диссертации – «**Вопросы совершенствования наказания в виде ограничения свободы»** состоит из трех параграфов. В данной главе говорится, о субъектах, регулирующих наказание в форме ограничения свободы, состоянии привлечения заключенных к труду, а также о возможности досрочного освобождения заключенных, приговоренных к ограничению свободы, даны, с учетом судебной практики, рекомендации и предложения по совершенствованию данных аспектов уголовного права.

**Четвертая глава** диссертации – «**Эффективность наказания в виде ограничения свободы»** состоит из двух параграфов, где наряду с анализом понятия эффективности наказания, также исследуются вопросы повторного совершения преступления лицами, у которых было ограничена свобода в период 2005-2009 г.г., а также условия возникновения таких ситуаций.

**В заключительной части** диссертации были даны конкретные предложения и рекомендации по совершенствованию уголовного законодательства в сфере борьбы с преступностью посредством наказания в виде ограничения свободы.

## SUMMARY

Dissertation work of Chelyabieva Tamella Bayram kizi on the subject "The role of the punishment in the kind of limiting freedom in the fight against criminality" in the specialty 5611.01 – Criminal law and criminology; Penitentiary law represents the complex research of monographic character considering norm of the General part (article 53) about limiting freedom and sanctions of the norms of the Special part of the existing Criminal Code. In general, a problem of criminal and legal punishment and their application, taking the central place in criminal law, at the same time has special value in connection with the complexity. From this point of view, in dissertation work the elimination inaccuracy from the criminal legislation of Azerbaijan Republic of norm of punishment in the kind of limiting freedom, importance of this kind of punishment in correction and social adaptation in society, persons with limited freedom, in comparison with other forms of criminal penalty is emphasized, and also new edition of the contents of the 53rd article of the Criminal code, taking into account foreign legal experience in this sphere is offered.

The structure of dissertation work consists of introduction, four chapters, twelve paragraphs, conclusion and the list of the used literature.

In introduction locates the relevance of the chosen research subject, degree of study of the subject, object and the subject of research, the aims, goals and tasks problem, regulatory and empirical base, theoretical and methodological bases, scientific novelty of research, information on the basic provisions of the thesis submitted for protection, and also information on structure of the thesis and approbation of the main results of research is reflected.

**The first chapter** of the dissertation – "A place of limiting freedom in the system of punishment" consists of 4 paragraphs. Here are shown concept of limiting freedom as punishment forms, other types of punishments - limiting freedom in the form of compulsory labor involvement in the form of the conditional conclusion, corrective works and temporary imprisonment, and also their difference from each other.

**The second chapter** of the dissertation – "The mechanism of application and an execution of the punishment in the kind of limiting freedom" consists of three paragraphs, where it is told about a role and a place of limiting freedom in the development of sanctions, bases of its application, and also the questions connected with the mechanism of execution of these types of punishments are investigated.

**The third chapter** of the dissertation – "Questions of improvement of punishment in the kind of limiting freedom" consists of three paragraphs. In this chapter it is told, about the subjects regulating punishment in the kind of limiting freedom, a condition of involvement of prisoners to work and also about possibility of an early release of the prisoners sentenced to limiting freedom are given, taking into account jurisprudence, the recommendation and a suggestion for improvement of these aspects of criminal law.

**The fourth chapter** of the dissertation – "Efficiency of punishment in the kind of limiting freedom" consists of two paragraphs where along with the analysis of concept of efficiency of punishment, questions of repeated commission of crime by persons at which was are also investigated freedom in the period of 2005-2009, and also conditions of emergence of such situations is limited.

In the conclusion of dissertation work specific proposals and recommendations about improvement of the criminal legislation in the sphere of fight against criminality by means of punishment in the kind of limiting freedom were made.



**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ТАМЕЛЛА БАЙРАМ кызы ЧЕЛЯБИЕВА**

# РОЛЬ НАКАЗАНИЯ В ВИДЕ ОГРАНИЧЕНИЯ СВОБОДЫ В БОРЬБЕ С ПРЕСТУПНОСТЬЮ

**Специальность: 5611.01 – «Уголовное право и криминология; уголовно-исполнительное право»;**
**5613.01 – «Власт; прокуратура и адвокатская деятельность, организация правоохранной деятельности**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по праву**

**Баку – 2016**